

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 1 - yanvar 2018

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



*Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 01 YANVAR 2018

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**

(012) 539-76-75



Qaynar xətt

Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:






## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib ....................5
Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir ....................7


## 20 YANVAR - ÜMUMXALQ HÜZN GÜNÜDÜR


Qanlı 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti ....................10
Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər ....................12
20 Yanvar: müasir tariximizin şəhid qanı ilə yazılmış hünər səhifəsi ....................13


## ƏDLİYYƏ NAZİRLİYİNDƏ


Ədliyyə Nazirliyində 2017-ci ilin yekunları müzakirə olunub ....................17
Ədliyyə naziri Şamaxıda vətəndaşları qəbul edib ....................21
Azərbaycan və Əlcəzair arasında hüquqi əlaqələr genişlənir ....................22
Məhkəmə qərarlarının icrası işi təkmilləşdirilir....................23
Probasiya xidmətinin qarşısında duran vəzifələr müzakirə olunub ....................24
Penitensiar xidmətdə əməliyyat müşavirəsi keçirilib ....................25
Probasiya üzrə icra məmurlarının maarifləndirilməsi diqqət mərkəzindədir ....................27


## YENİ QANUNLAR, FƏRMANLAR...


“2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 yanvar tarixli 3568 nömrəli Sərəncamı ....................28
“1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 yanvar tarixli 3587 nömrəli Sərəncamı....................28
“Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 917-VQD nömrəli Qanunu ....................29
“Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanunu ....................31
“Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1807 nömrəli Fərmanı....................36
”Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 927-VQD nömrəli Qanunu ....................37

## YENİ QANUNLAR, FƏRMANLAR...


”Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 930-VQD nömrəli Qanunu ....................38

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 936-VQD nömrəli Qanunu ....................38

“İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 941-VQD nömrəli Qanunu ....................39

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanunu ....................40

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun tətbiqi və ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1806 nömrəli Fərmanı ....................41



# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib.

2017-ci ildə Azərbaycanın sürətlə və uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev dünyanın müxtəlif yerlərində təhlükələrin, risklərin artmasına baxmayaraq, Azərbaycanda sabitliyin, təhlükəsizliyin təmin olunduğunu söyləyib, bu sabitliyin və uğurlu siyasətin təməlində xalq-iqtidar birliyinin, xalqın dəstəyinin dayandığını vurğulayıb. Dərin iqtisadi islahatlar ili kimi xarakterizə olunan

2017-ci ildə iqtisadi sahədə böyük uğurların qazanıldığını deyən ölkə rəhbəri beynəlxalq maliyyə qurumlarının Azərbaycanda gedən proseslərə yüksək qiymət verdiklərini söyləyib. Qeyd edib ki, 2017-ci ildə Davos İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 35-ci yerdə qərarlaşıb və ölkəmiz bu baxımdan MDB məkanında liderliyini qoruyur. Ötən il Azərbaycanda ÜDM və qeyri-neft sektoru artıb, qeyri-neft sənayesində 3,6 faiz, kənd təsərrüfatında 4,1 faiz artım əldə olunub, valyuta ehtiyatları 4,5 milyard dollar artaraq 42 milyard dollara çatıb. Həmçinin bir çox önəmli layihələr icra edilib, Azərbaycan iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub, ixrac 19 faiz, qeyri-neft ixracı isə 24 faiz artıb.

Regionların inkişafının daim diqqət mərkəzində saxlanıldığını, keçən il 30-dan çox rayona səfər edərək verilən tapşırıqların icrası ilə yerindəcə tanış olduğunu deyən ölkə Prezidenti bölgələrdə yeni müəssisələrin açıldığını diqqətə çatdırıb. Bildirib ki, keçən il 177 mini daimi olmaqla 221 min yeni iş yeri açılıb, işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsində qərarlaşıb, bu isə dünya səviyyəsində ən yaxşı nəticələrdən biridir.

Həmçinin infrastruktur layihələrinin icrası diqqətdə saxlanılaraq elektrik təchizatı yaxşılaşdırılıb, yeni yarımstansiyalar işə düşüb, bölgələrdə qazlaşdırma işləri sürətlə aparılıb, kənd təsərrüfatının inkişafı üçün önəmli tədbirlər görülüb. Bundan əlavə, keçən il 1300 kilometr avtomobil yolu salınıb, 500-dən çox kəndə yeni yol çəkilib, içməli su layihələri uğurla icra edilib, 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı, 500-ə yaxın məktəb isə cari təmir edilib, 30 tibb müəssisəsi tikilib və ya əsaslı təmir olunub, 2 olimpiya kompleksi istifadəyə verilib.

Məcburi köçkünlərlə bağlı məsələlərin də həllini tapdığını, 2300 ailənin yeni mənzillərə köçürüldüyünü söyləyən dövlət başçısı Cocuq Mərcanlının bərpasını tarixi nailiyyət adlandırıb, Şıxarx qəsəbəsində aparılan quruculuq işlərinin əhəmiyyətini vurğulayıb.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğulayıb, Azərbaycanın mövqeyinin ədalətli və beynəlxalq hüquqa əsaslandığını bildirib. Qeyd edib ki, bunu Dağlıq Qarabağda keçirilən dırnaqarası referendumun beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən tanınmaması ilə bağlı verilən bəyanatlar da təsdiqləyir. Azərbaycanın hərbi gücünün artdığını, beynəlxalq reytinqə görə ordumuzun dünyanın ən güclü ordularından biri olduğunu deyən ölkə başçısı növbəti illərdə də bu sahədə tədbirlərin görüləcəyini, yeni silahların alınacağını bildirib.

Dövlət başçısı "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənilməsini nəzərdə tutan müqavilənin 2050-ci ilə qədər uzadılmasının əhəmiyyətini vurğulayıb, Cənub Qaz Dəhlizinin icrasının uğurla təmin edildiyini, "Şahdəniz-2" layihəsinin icrasının 99 faizə çatdığını, Cənubi Qafqaz kəmərinin 93 faiz, TANAP layihəsinin 90 faiz icra edildiyini, TAP layihəsi üzrə işlərin cədvəl üzrə getdiyini qeyd edib. Açılışı ötən il olan Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirdiyini deyən Prezident İlham Əliyev artıq bir neçə ölkənin bu layihəyə qoşulmaqla bağlı müraciət etdiyini bildirib, Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində də önəmli addımların atıldığını, İran sərhədinə qədər dəmiryolunun tikintisinin təmin edildiyini söyləyib.

Ötən il baş verən önəmli hadisələr sırasında Azərbaycanda keçirilən İslam Həmrəyliyi Oyunlarını qeyd edən dövlət başçısı idmançılarımızın komanda hesabında birinci yerə çıxdıqlarını, 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması ilə bağlı qərarın bizim bir daha öz tarixi köklərimizə bağlılığımızı göstərdiyini qeyd edib.

Sonra maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

Yekun nitqində qarşıda duran vəzifələrdən danışan Prezident İlham Əliyev bir çox önəmli layihələrin icrasının nəzərdə tutulduğu 2018-ci ildə ölkədə makroiqtisadi vəziyyətin sabitliyi ilə bağlı lazımi tədbirlərin görüləcəyini bildirib. Həmçinin, qeyri-neft sektorunun inkişafının daim diqqət mərkəzində saxlanıldığını, sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verilməsinin davam etdiriləcəyini, yeni iş yerlərinin açılması üçün işlərin görü-

ləcəyini, özünəməşğulluq proqramının icrası məqsədilə müvafiq vəsaitin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

2018-ci ildə yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayının keçən illə müqayisədə 2 dəfə artırılacağını deyən ölkə rəhbəri vurğulayıb ki, sosial infrastruktur layihələrinin icrası davam etdiriləcək, bölgələrdə modul tipli məktəblərin tikintisi aparılacaq, regionlarda və paytaxtda məktəblərin və tibb müəssisələrinin təmiri və inşası həyata keçiriləcək. Eyni zamanda, sənaye məhəllələrinin yaradılması prosesinin davam etdiriləcəyini, kənd təsərrüfatının inkişafı üçün addımların atılacağını, yeni xalça fabriklərinin açılışının nəzərdə tutulduğunu söyləyən dövlət başçısı qeyd edib ki, pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, sitrusçuluqla bağlı müsbət nəticələr əldə olunub və bu sahələrə diqqət davam etdiriləcək. Heyvandarlığın inkişafı, yeni kənd təsərrüfatı texnikasının alınması, zeytunçuluğun və arıçılığın inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək.

Prezident İlham Əliyev 2018-ci ildə 3 ASAN xidmət mərkəzinin də fəaliyyətə başlayacağını və daha 5 mərkəzin tikintisinə başlanılacağını qeyd edib, turizmin inkişafı il bağlı bu il də əlavə tədbirlərin görüləcəyini vurğulayıb. 2018-ci il TANAP layihəsinin icrası, Bakı-Tbilisi-Qars dəmiryolunun fəaliyyəti üçün önəmli il olacağını deyən dövlət başçısı bu il ölkədə 2 min kilometrdən çox avtomobil yolunun çəkiləcəyini, bölgələrdə qazlaşdırma işlərinin 95 faizə çatdırılmasının nəzərdə tutulduğunu, 100 min hektardan çox yeni sahəyə suyun təminatının təşkil ediləcəyini bildirib.

Bu il müstəqilliyimizin 100 illiyinin qeyd ediləcəyini söyləyən Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını tarixi hadisə adlandırıb, müstəqil dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bildirib və bütün bunları nəzərə alaraq 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edib.

# Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir

**Yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.**

Tədbirdə çıxış edən ölkə başçısı dövlət proqramlarının həyata keçirilməsinin regionların inkişafında dönüş yaratdığını diqqətə çatdırıb, 2003-cü ildən Azərbaycanın böyük uğurlara imza atdığını, respublikamızda hərtərəfli inkişafın təmin olunduğunu vurğulayaraq ölkədə aparılan islahatların dünya birliyi tərəfindən də yüksək qiymətləndirildiyini bildirib.

Azərbaycanda sabitliyin təmin edildiyini, bunun mənbəyində isə xalqın iradəsinin, xalq-iqtidar birliyinin durduğunu deyən dövlət başçısı ölkəmizin təhlükəsizlik, əmin-amanlıq şəraitində uğurla inkişaf etdiyini, inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə dünyada nümunəvi ölkələrdən olduğunu söyləyib. Xalqın həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən danışan Prezident İlham Əliyev əsas məqsədin dövlətin qüdrətini artırmaqdan və müstəqilliyimizi möhkəmləndirməkdən ibarət olduğunu vurğulayıb.

Dövlət başçısı bildirib ki, son 14 ildə ölkədə 30 elektrik stansiyası tikilib, Azərbaycan elektrik enerjisini ixrac edən ölkəyə çevrilib. Ölkə üzrə qazlaşdırma 93 faizə çatıb, içməli su və kanalizasiya problemləri uğurla həll olunub, kənd təsərrüfatının inkişafı üçün meliorativ tədbirlər görülüb, 4 su anbarı tikilib, 12.300 kilometr yol çəkilib və bu il bu rəqəm 15 min kilometrə çatacaq.

On dörd il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. İqtisadiyyat 14 ildə 3,2 dəfə, qeyri-




neft iqtisadiyyatı 2,8 dəfə, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Valyuta ehtiyatlarımız 23 dəfə artaraq 42 milyard dollara çatıb və adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Prezident İlham Əliyev ötən dövrdə ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulduğunu, ölkəmizdə demoqrafik proseslərin də sürətlə getdiyini, ötən 14 ildə əhalimizin 1,5 milyon nəfər artdığını qeyd edib. Ölkədə 1,4 milyonu daimi olmaqla 1,9 milyon iş yeri yaradılıb. Görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Həmçinin maaşlar 14 il ərzində beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilib. 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib, yaxud təmir edilib, 43 Olimpiya İdman Kompleksi inşa olunub.

Ölkə rəhbəri sahibkarlığın inkişafının da diqqət mərkəzində saxlanıldığını və sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verildiyini söyləyib, "Asan xidmət" mərkəzlərinin yaradılması ilə ictimai xidmətlər sahəsində inqilabi dönüşün baş verdiyini, son 5 il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edildiyini vurğulayıb, rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi mübarizə aparılmasından, bu istiqamətdə səmərəli addımların atılmasından bəhs edib.

Kosmik ölkəyə çevrilən Azərbaycanın hazırda iki - telekommunikasiya və əraziləri müşahidə peykinin olduğunu, üçüncü peykin isə bu il orbitə buraxılacağını deyən dövlət başçısı həmçinin nəqliyyat və energetika layihələrindən danışıb, ölkədə 7 aeroport, böyük gəmiqayırma zavodu inşa olunduğunu, Ələt Dəniz Ticarət Limanının bu il istifadəyə veriləcəyini qeyd edib. Həmçinin, Bakı-Tbilisi-Qars dəmir yolunun bölgədə nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində son illərdə həyata keçirilən ən önəmli layihə olduğu diqqətə çatdırılıb, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin əhəmiyyəti vurğulanıb, bütün bu layihələrin ölkəmizin uzunmüddətli inkişafına şərait yaratdığı bildirilib.

Sonra Lənkaran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Naxçıvan Muxtar Respublikasındakı "Nəqşicahan Holdinq" şirkətlər qrupunun "Duzdağ" Müalicəvi İstirahət Mərkəzinin direktoru Novruz Novruzov, Tərtər Rayon İcra Hakimiyyəti-



nin başçısı Müstəqim Məmmədov, Neftçala Sənaye Məhəlləsinin direktoru Nəriman Xəlilov, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Ağdam rayonundakı Heyvandarlıq Kompleksinin direktoru Fuad Əyyubzadə, Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Saatlı rayonundakı "Aqro-Az" Məhdud Məsuliyyətli Cəmiyyətinin (pambıq istehsalı və emalı) rəhbəri Vahid Hüseynov və Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev görülən işlərlə bağlı məruzə ediblər.

Prezident İlham Əliyev yekun nitqində qazlaşdırma, elektrik enerjisi, içməli su və kanalizasiya xidmətləri ilə təminat sahəsində işlərin davam etdirilməsinin vacibliyini vurğulayıb. Yeni torpaq sahələrinin suvarılacağını, avtomobil yollarının çəkiləcəyini, 6 rayon mərkəzi xəstəxanasının, 137 modul tipli məktəbin, 4 Olimpiya İdman Mərkəzinin tikiləcəyini, məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasının diqqət mərkəzində olacağını bildirib.

Yeni iş yerlərinin açılmasının daimi proses olmasının vacibliyini vurğulayan Prezident İlham Əliyev özünəməşğulluq, həmçinin, "Ailə Biznesinə Asan Dəstək" - ABAD proqramının əhəmiyyətindən danışıb. Dövlət başçısı Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti üçün tədbirlərin görülməsinin önəminə toxunaraq Şimal-Cənub, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin, həm də ölkədə dəmir yolu infrastrukturunun yaradılması ilə bağlı görülən işləri vurğulayıb. Qarşıdakı dövrdə 3 "Asan xidmət" mərkəzinin, xalça fabriklərinin açılacağını, yeni sənaye müəssisələrinin fəaliyyətə başlayacağını deyən Prezident İlham Əliyev turizmin, ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması, ixrac məhsulları üçün yeni bazarların tapılması və ixracdan asılılığın azaldılması istiqamətində tədbirlərin görülməsi ilə bağlı tapşırıqlarını verib.

Azərbaycanda iqtisadi və maliyyə vəziyyətinin sabit olduğunu, ölkədə gedən islahatların uğurlu nəticələr verdiyini və beynəlxalq səviyyədə təqdir olunduğunu deyən dövlət başçısı bir daha vurğulayıb ki, ölkədə yürüdülən siyasət xalqın maraqlarına xidmət edir və dövlətimizi gücləndirir.

# Qanlı 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti

## *Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib*






Qanlı Yanvar hadisələrindən 28 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 28 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı





Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq hüzn günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səslənib.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini anıblar.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

# Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər






**Ümumxalq hüzn günündə ədliyyə işçiləri Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər çiçəklər düzüblər.**

20 Yanvar faciəsinin 28-ci ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyində və bütün struktur qurumlarında anma mərasimləri keçirilərək faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, xalqımızın müstəqillik yolunda keçdiyi keşməkeşli tarixə bir daha nəzər salınıb.

Tədbirlərdə Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə tarixinə əbədi həkk olunmuş 20 Yanvar faciəsinin həmvətənlərimizin mübarizliyini və əyilməzliyini nümayiş etdirdiyi vurğulanıb, günahsız insanların vəhşicəsinə qətlə yetirilməsi ilə nəticələnən bu qanlı hadisələrə uzun müddət siyasi-hüquqi qiymət verilməməsi xatırlanıb. Bildirilib ki, həmin ağır günlərdə Azərbaycan xalqına qarşı bu faciənin törədilməsini cəsarətlə bəyan edən ümummilli lider Heydər Əliyev tərəfindən 20 Yanvar hadisələrinə ilk dəfə hərtərəfli və obyektiv siyasi-hüquqi qiymət verilib, məhz xalqın təkidli tələbi ilə onun yenidən hakimiyyətə qayıdışından sonra 20 Yanvar qurbanlarının xatirəsi əbədiləşdirilib, şəhid ailələrinə və o müdhiş gecədə sağlamlığını itirmiş soydaşlarımıza lazımi dövlət qayğısı göstərilib.

Yığıncaqlarda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müstəqil dövlətimizin qüdrətlənməsi, bu tarixi gün barədə əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə geniş çatdırılması üzrə məqsədyönlü addımların atıldığı, diqqət və qayğı ilə əhatə olunan şəhid ailələrinin və əlillərin sosial təminatının gücləndirildiyi qeyd edilib, şəhidlərimizin əziz xatirəsinin hər bir azərbaycanlının qəlbində əbədi yaşayacağı bildirilib.

Nazirlikdə Qanlı Yanvar faciəsi ilə bağlı kinozalda filmlər, foto-slaydlar nümayiş etdirilib.

# 20 Yanvar: müasir tariximizin şəhid qanı ilə yazılmış hünər səhifəsi

Hər bir tarixi hadisənin qiymətini zaman verir. 20 Yanvarın mənasını, tariximizdəki yerini və rolunu illər keçdikcə daha aydın dərk edirik. Vaxtilə ulu öndər Heydər Əliyev bu barədə danışarkən deyirdi: "1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur".



### 20 Yanvara 28 ildən sonra baxış

Həmin qanlı yanvar günündən 28 il ötür. İllər keçdikcə bu hadisəyə baxışlar dəyişir. Vaxtilə ağlayıb-sızlayır, qəm dəryasına batır, şəhid məzarlarına qərənfillər düzməklə təskinlik tapırdıq. İndi isə kədərlə yanaşı, ürəklərdə sonsuz qürur hissi də baş qaldırır. Onda - qaranlıq səmada güllələrin parıldadığı, küçələrdə tankların şütüdüyü qış gecəsində azadlıq günəşinin doğmasından, həyatımızda başlayan dönüşdən hələ xəbərsiz idik. Bilmirdik ki, üstümüzə tankla hücuma keçən bu imperiyanın sonu çatıb və Azərbaycan yenidən müstəqil dövlət olacaq. İndi şəhidləri azadlıq müjdəsi gətirən qaranquşlara bənzədirik.



Ötən 28 ildə həyatımız büsbütün, müqayisəyə gəlməz dərəcədə dəyişib, 90-cı ilin Bakısından, 28 il əvvəlki Azərbaycandan, demək olar, əsər-əlamət qalmayıb. İmzalar içində imzamız, bayraqlar sırasında bayrağımız, sözlər yanında sözümüz var. İllərin və zamanın axarında dəyişməz qalan isə xalqın şəhidlərə hörmət və ehtiramıdır.

Biz ötüb keçən zamanın fonunda dünyanın soyuq üzünü, ədalətsizliyini, xalqımızın faciəsinə özgə dərdi kimi baxdığını da gördük. 90-cı ilin yanvarında Bakıya hücum əmri verən, yüzlərlə günahsız insanın ölümünə bais olan Mixail Qorbaçova Nobel sülh mükafatı verdilər. Təzada baxın: nahaq axıdılan qan və sülh mükafatı...

### Kədərin içərisindən baş qaldıran ümid və inam

Həmin yanvar günləri zülmət gecəyə bənzəyirdi. Havadan qan və ölüm qoxusu gəlirdi. Analar fəryad qoparır, qız-gəlinlər ağı deyir, kişilər göz yaşlarını



güclə saxlayırdılar. Ədalət, haqq divanı qurulsa, bir xalqın başına gətirilən müsibətə bu gün minlərlə, on minlərlə insan şahidlik edər.

İmperiya qoşunlarının Bakıda törətdiyi hərbi cinayətin digər təkzibolunmaz dəlil-sübutu fotoşəkillərdir. Qanlı epizodların, şəhidlərin dəfnində yaşanan nəhəng izdihamın, insan portretlərinin əks olunduğu fotolar xalqın faciəsini və hünərini zamandan-zamana daşıyır. Onlara diqqət yetirsək, ümumxalq kədərinin içərisindən baş qaldıran ümid və inamı da görə bilərik. Xüsusən faciənin ertəsi gün o vaxt Moskvada yaşayan Heydər Əliyevin Azərbaycan nümayəndəliyinə gələrək bu kədərə şərik çıxması, sovet rəhbərliyinin Bakıda törətdiyi hərbi cinayəti pisləməsi xalqımıza güc verdi, ona böyük dayaq oldu.

20 Yanvar faciəsinə bir günün, yaxud bir ayın ərzində baş verən hadisə kimi baxmaq olmaz. Rəsmi Moskva tərəfindən erməni separatizminə rəvac və dəstək verilməsi, respublika rəhbərliyinin mütiliyi və milli mənafeyə zidd mövqeyi xalqı hiddətləndirmiş, güclü etiraz dalğası doğurmuşdu. Böyüklü-kiçikli hamı küçə və meydanlara axışırdı. Mitinqçilərin sıraları günbəgün genişlənir, paytaxtın baş meydanında xalqın azadlıq istəyini əks etdirən




şüar və plakatlar görünməyə başlayırdı. Beləliklə, əldən gedən torpaq uğrunda mübarizə tədricən azadlıq hərəkatına çevrilirdi.

Can üstə olan imperiya çıxış yolu kimi Bakıda fövqəladə vəziyyət rejimi elan etdi, bundan bir nəticə hasil olmadığını gördükdə Azərbaycan paytaxtına qoşun yeritmək qərarına gəldi.

### Misli-bərabəri olmayan qəddarlıq

1990-cı il, 20 yanvar, saat 00:00. Bir neçə gün əvvəl Bakı ətrafında yerləşdirilmiş ordu birləşmələri beş istiqamətdən şəhərə soxuldu. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar qarşılarına çıxan avtomobilləri, insanları əzib keçir, əsgərlər heç kəsə aman vermirdilər.

Yanvarın 20-də səhər hava işıqlaşar-işıqlaşmaz küçələrə axışan Bakı sakinləri indiki "20 Yanvar"



dairəsində (onda həmin ərazi XI qızıl ordu meydanı adlanırdı) və ona yaxın küçələrdə dəhşətli mənzərələrlə qarşılaşdılar: tankların əzib keçdiyi cəsədlər, avtobuslar, yük və minik avtomobilləri, qar üzərindəki qan izləri... Xəstəxanalar yaralılarla dolu idi. Şəhərin mərkəzi küçə və meydanları tanklar və silahlı əsgərlər tərəfindən mühasirəyə alınmışdı.

Yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı bir neçə gündə Bakıda və Azərbaycanın digər bölgələrində 147 nəfər qəddarcasına öldürüldü, 744 nəfər yaralandı, 800-dən çox insan qanunsuz həbs olundu. Öldürülənlər və yaralananlar arasında qadınlar və qocalar, hətta uşaqlar da vardı. Onlardan bəziləri ömürlük şikəst oldu.

Bu hadisələrdən bir müddət sonra - 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən Ulu Öndər faciə barədə danışarkən deyirdi: "Mən belə hesab edirəm



ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər".

Bəzi məlumatlara görə, hadisə ərəfəsində Bakıya və Bakı ətrafına Sovet ordusunun və daxili qoşunların Azərbaycan xalqına nifrət ruhunda köklənmiş 65 min nəfərlik kontingenti yerləşdirilmişdi.

Qəddarlığın da misli-bərabəri yox idi. "Şit" təşkilatının müstəqil ekspertləri tərəfindən hazırlanmış hesabatdan: "Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur, xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşlər, adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Atəş zamanı "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi".



### 20 Yanvar: faciə və qəhrəmanlığın üst-üstə düşdüyü nadir məqam

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. 20 Yanvar Azərbaycan tarixinin məhz belə səhifəsidir. Şəhidlər son mənzilə görünməmiş izdihamla yola



salındı. Xalq faciə qurbanlarını son mənzilə çiyinlər üstündə apardı. Şəhidlərin dəfni nə qədər ağır səhnə olsa da, bir o qədər də qürurverici məqamdır.

Bakının ən yüksək nöqtələrindən birində - o vaxt "Dağüstü park" adlanan yerdə şəhidlər üçün məzarlar qazılıb. Cənazələr indiki "Azadlıq" meydanına düzülüb. Şəhidlərlə vidalaşmaq üçün buraya milyonlarla insan toplaşıb.

İnsan seli məzarlığa yaxınlaşır. Bu vida anlarında doğmalarını, əzizlərini itirmiş insanların ağrı-acıları, keçirdikləri hissləri ifadə etmək üçün söz tapmaq çətindir.

### Şəhid qanı: bayrağımızdakı qırmızı rəng

Onlar Vətən naminə şəhid oldular, bununla da milyonlara fədakarlıq dərsi keçdilər. 1990-cı ilin yanvar hadisələri zamanı həlak olmuş qəhrəman Vətən övladlarının xatirəsi hər bir həmvətənimiz üçün əzizdir.

# 20 Yanvar - Ümumxalq hüzn günüdür



Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atmış, qərarlar qəbul etmişdi. Bu siyasəti davam etdirən Prezident İlham Əliyevin Sərəncamına əsasən 2007-ci ildə Şəhidlər xiyabanı vahid kompleks kimi yenidən qurulub.

Şəhidlər xiyabanı Azərbaycan xalqının 28 il əvvəl düçar olduğu böyük faciə ilə yanaşı, yenilməz iradəsindən xəbər verir. Özündə ümummilli kədər və iztirabın nişanələrini yaşatmaqla bərabər, mübarizlik rəmzinə çevrilib.



Bu müqəddəs məkanı uşaqdan tutmuş böyüyədək hamı ziyarət edir. Günün istənilən vaxtı burada müxtəlif yaşda insanlar görmək olar. Onlar şəhid məzarları önündə ayaq saxlayır, qranit lövhəyə həkk edilmiş adları oxuyur, şəkillərə baxırlar. Bu məzarlarda uyuyan şəhidlər Azərbaycanın müxtəlif guşələrində doğulublar. Ölüm tarixi, əbədiyyətə qovuşduqları məkan isə eynidir: 20 yanvar 1990-cı il, Şəhidlər xiyabanı.

28 ildir ki, hər 20 Yanvar günü Şəhidlər xiyabanında böyük izdiham yaşanır. Şəhid məzarları önündən yüz minlərlə insan ötüb-keçir. Ötüb keçən illər xalqın şəhidlərinə olan ehtiramını nəinki azaltmır, əksinə, 28 il əvvəl baş verənlərin mənası, bu xiyabanda əbədiyyətə qovuşanların gördüyü işlərin mahiyyəti zaman keçdikcə daha da aydınlaşır. Xalqımız azadlıq arzusuna qovuşub, hər birimiz müstəqil dövlətin vətəndaşı olmağımızla fəxr edirik. Onda - 1990-cı ilin yanvarında müstəqillik bir xəyal, bir arzu idi. Şəhidlərimizin axan qanı, xalqın verdiyi qurbanlar hədər getmədi, xəyal və arzular həqiqət oldu.

Şəhid qanı müqəddəsdir. Ona ən dəqiq qiyməti ulu öndər Heydər Əliyev verib: "O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

**Azərtac**

# Ədliyyə Nazirliyində 2017-ci ilin yekunları müzakirə olunub

**Yanvarın 26-da ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin geniş Kollegiya iclası keçirilib. Nazirliyin struktur qurumlarının, yerli və regional ədliyyə idarələrinin rəhbərlərinin, QHT və KİV nümayəndələrinin iştirak etdiyi iclasda 2017-ci ildə ədliyyə orqanları tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub.**

Nazir ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini, dünyada təhlükələrin, təlatümlərin artdığı şəraitdə Azərbaycanın 2017-cı ildə sürətli tərəqqisinin, sabitliyinin və təhlükəsizliyinin təmin edildiyini, qarşıya qoyulan bütün strateji inkişaf hədəflərinə nail olunduğunu vurğulayıb.

Bildirilib ki, Azərbaycan ədliyyəsi də ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq islahatlar aparılmaqla təkmilləşir və müasirləşir. Bu sahədə islahatlara beynəlxalq maraq artaraq ötən il ölkəmizin məhkəmə sistemindəki nailiyyətləri Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülüb, həmçinin Dünya Bankı tərəfindən bu sahədə innovasiyalara görə nominasiyaların qalibi elan olunub.

İclasda ədliyyə orqanları tərəfindən görülmüş işlər əyani təqdimat keçirilməklə təhlil edilib.

Qeyd olunub ki, 2017-ci ildə nazirlik tərəfindən iqtisadi inkişafa, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əvvəlki illə müqayisədə 23% çox - 1.400-ə yaxın normativ hüquqi akt layihəsi hazırlanıb, ictimai həyatın müxtəlif sahələrini tənzimləyən 3.200-ə yaxın belə akt hüquqi ekspertizadan keçirilib. Nazirlik tərəfindən aparılan və əhalinin təmənnasız istifadə etdiyi qanunvericiliyin elektron bazalarına (e-qanun.az, huquqiaktlar.gov.az) müraciət edənlərin sayı 56 faiz artaraq 810 minə çatıb.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi diqqətdə saxlanılıb, 13 min vətəndaş nazirlikdə, bölgələrdə və "virtual qəbul" məntəqələri vasitəsilə qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

Notariat orqanlarında aparılan əməliyyatların sayı artaraq 3,9 milyona çatıb, bunların da 94%-i xüsusi notariuslar tərəfindən rəsmiləşdirilib. Həmçinin, 324 min vətəndaşlıq vəziyyəti aktı rəsmiləşdirilib, bu əməliyyatlarla bağlı 44 milyon manatdan çox dövlət rüsumu və haqq ödənilib. Həmçinin daşınmaz əmlakla əlaqədar müqavilələr üzrə notariuslar tərəfindən təxminən 40 milyon manat vergi dövlət büdcəsinə köçürülüb.

Eyni zamanda, Azərbaycan brendi olan "ASAN xidmət" çərçivəsində il ərzində rəsmiləşdirilən əməliyyatların 21 faizi, verilmiş hazır sənədlərin 44 faizi ASAN mərkəzlərində fəaliyyət göstərən ədliyyə qurumları tərəfindən həyata keçirilib.

Həmçinin, vətəndaş məmnunluğunun təmin edilməsi, doğumun qeydiyyatı sahəsində müddət gecikmələrinin qarşısının alınması məqsədilə 2017-ci ildə 5.200-dən çox doğum səyyar qaydada bilavasitə tibb müəssisələrində rəsmiləşdirilib.

Vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan və nazirlik tərəfindən dövlət qeydiyyatına alınmış qeyri-kommersiya təşkilatlarının ölkədə ümumi sayı 4.180 təşkil edir, KİV-lərin sayı isə 5.200-ə çatıb.

Diqqətə çatdırılıb ki, ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər təkmilləşdirilib, ötən il nazirliyin 25 elektron xidmətindən istifadə edənlərin sayı əvvəlki illə müqayisədə 2,5 dəfə artaraq 4,6 milyonu ötüb.

Məhkəmə Ekspertizası Mərkəzinə il ərzində 41 ekspert ixtisası üzrə 34.800-dən artıq iş daxil olub, bu zaman ekspertlər 785 minə yaxın suala cavab verməklə qaldırılmış məsələlərin 99,5%-ni həll ediblər.

Yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət qaydasında 2017-ci ildə 62.600 bələdiyyə aktına baxılıb və nazirliyin təklifləri əsasında 1.454 akt ləğv edilib və ya dəyişdirilib, bələdiyyələr tərəfindən qanunsuz ayrılmış 2.640 hektar torpaq sahəsi geri qaytarılıb. Həmçinin, qanunvericiliyin tələblərini pozan bələdiyyə sədrləri barədə 98 inzibati xəta haqqında protokollar məhkəmələrə göndərilib və onların əksəriyyəti barədə artıq işlərə baxılaraq inzibati məsuliyyətə cəlb ediliblər.




Kollegiyada həmçinin bildirilib ki, dövlət gənclər siyasətinə uyğun olaraq yeni nəsil kadr korpusunun formalaşdırılması üzrə tədbirlər davam etdirilib, açıq müsabiqələr nəticəsində əksəriyyətini gənclər təşkil edən 218 nəfər qulluğa qəbul olunub, bütövlükdə ötən il ərzində 600 vakant ştat vahidi









komplektləşdirilib. Hazırda növbəti müsabiqədən uğur qazanmış 95 namizəd peşə fəaliyyətinə buraxılışla əlaqədar Ədliyyə Akademiyasında icbari təlim keçirlər. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə yaradılmış könüllülər institutunun təşviqinə xüsusi diqqət yetirilərək, 200-dək gənc ədliyyə orqanlarında və məhkəmələrdə könüllü fəaliyyətə cəlb edilib.





2017-ci il nazirliyin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi baxımından zəngin olub, Gürcüstan, İran, Belarus, Ukrayna və Latviyanın ədliyyə nazirləri ölkəmizə, nümayəndə heyətimiz isə Əlcəzairə və Latviyaya səfərlər edib, ədliyyə sahəsində mühüm sənədlər imzalanaraq ölkə Prezidentinin fərmanları ilə təsdiq olunub.

İctimai iştirakçılıq təmin olunaraq cəzanı icra edən müəssisələrin fəaliyyətinə ictimai nəzarəti həyata keçirən İctimai Komitə və beynəlxalq təşkilatlar tərəfindən penitensiar müəssisələrə 302 başçəkmə həyata keçirilib və bu zaman İctimai Komitə tərəfindən 300-ə yaxın məhkuma hüquqi yardım göstərilib.

Nazirlikdə yaradılmış və işində İctimai Komitənin də fəal iştirak etdiyi Xüsusi Komissiyanın fəaliyyəti 2017-ci ildə davam etdirilib və məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi ilə bağlı məhkəmələrə göndərilmiş müraciətlərin 98%-si (2.200) müsbət həll edilib.

İclasda dövlət başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamı-



nın müstəsna əhəmiyyətinə toxunularaq hüquq mühafizə orqanları üçün "yol xəritəsi" olan bu mühüm sənəddə verilmiş tapşırıqların icrası üzrə görülən tədbirlərdən bəhs olunub.

Bildirilib ki, insanların azadlıq hüququnun qorunması, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi məqsədilə cəza-icra qanunvericiliyi xeyli humanistləşdirilib, Probasiya xidməti yaradılmaqla probasiya nəzarəti təsbit olunub, cəzaların icrası zamanı elektron nəzarət vasitələrinin tətbiqi üzrə tədbirlər görülüb. Kollegiyada elektron nəzarət vasitələrindən istifadə qaydaları barədə əyani təqdimat keçirilərək, elektron qolbaqların nümunələri nümayiş etdirilib.

Həmçinin qeyd olunub ki, 2017-ci il 17 oktyabr tarixli Qanunla Cinayət Məcəlləsinə edilmiş mühüm dəyişikliklərlə bir çox cinayətlərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına və ya yüngülləşdirilməsinə səbəb olub, nazirlik tərəfindən yeni qanunun təsiri altına düşən şəxslərin dairəsi müəyyən olunaraq məhkəmələrə müvafiq təqdimatlar göndərilib və artıq onlardan 500-ə yaxını baxılaraq təmin edilib.

Kollegiyada ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülmüş tədbirlər çərçivəsində, həmçinin penitensiar sistemdə insan hüquqlarının təmin olunması, xüsusilə neqativ faktların, sui-istifadə və pis rəftar hallarının aradan qaldırılması müzakirə edilib.

Nazir F.Məmmədov ölkə başçısının siyasi iradəsini nəzərə alaraq insan hüquqlarının təmin edilməsinin, ədliyyə və digər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən işgəncə və pis rəftarın digər hallarına qəti dözümsüzlük nümayiş etdirilməsinin xüsusi əhəmiyyətini vurğulayıb.

Bildirib ki, pis rəftarın qeyd-şərtsiz yolverilməzliyi nəzərə alınaraq, işgəncə və pis rəftarla bağlı bütün müraciətlər dolğun, hərtərəfli və obyektiv araşdırılmalı və belə faktlar öz təsdiqini tapdığı təqdirdə təqsirli şəxslərin məsuliyyətə cəlb olunması üçün heç bir güzəşt edilmədən ən sərt tədbirlər tətbiq olunmalıdır, bununla da işgəncəyə görə cəzanın mütləq qaçılmazlığı prinsipi təmin edilir.

Bu prinsipin və siyasi iradənin bariz təzahürü olaraq Prezident yanında Əfv Məsələləri Komissiyası tərəfindən işgəncə və ya pis rəftara görə məsuliyyətə cəlb olunmuş şəxslərə münasibətdə əfv, habelə amnistiya aktlarının tətbiq olunmamasının qərara alındığı vurğulanıb.

Nazir həmçinin, yerli və beynəlxalq hüquq müdafiə təşkilatları tərəfindən cəzaçəkmə müəssisələrində aparılan müstəqil monitorinqlərin, habelə işgəncələrə qarşı treninqlərin intensivləşdirilməsinin vacibliyini qeyd edərək, bu tədbirlərin neqativ halların qarşısının alınmasına xidmət edəcəyini bildirib.

Eyni zamanda, dövlət başçısının Sərəncamından irəli gələn tapşırıqlarının icrası çərçivəsində, habelə CPT-nin tövsiyələri nəzərə alınmaqla, cəzaçəkmə yerlərində pis rəftarın növü olan sıxlığın azaldılması üçün tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Ədliyyə naziri qeyd olunan Sərəncamın icrasına, eyni zamanda beynəlxalq təşkilatların tövsiyələrinə uyğun alaraq tibbi xidmətlərin səviyyəsinin yüksəldilməsi və göstərilməsi işinə nəzarətin artırılmasının prioritet sahələrdən biri olduğunu vurğulayıb.

Bununla yanaşı, ekstradisiyanın həyata keçirilməsində Ədliyyə Nazirliyinin səlahiyyətli orqan olduğundan, təslimetmə zamanı xüsusilə Avropa Şurasının üzvü olmayan dövlətlərdə işgəncə ilə üzləşmə risklərinin araşdırılmasının və mütləq nəzərə alınmasının vacibliyi qeyd olunub.









Tədbirə dəvət olunmuş QHT nümayəndələri çıxış edərək ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, Ədliyyə Nazirliyinin ictimai iştirakçılığa hər zaman xüsusi önəm verdiyini və səmərəli əməkdaşlığı vurğulayıblar.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə fəaliyyətində mövcud nöqsan və çatışmazlıqlar müzakirə edilib, bununla bağlı tabe qurumların rəhbərləri dinlənilib, işin səmərəliliyinin artırılmasına dair aidiyyəti tapşırıqlar verilib.

Kollegiyada ölkə Prezidentinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, hər bir məmurun təvazökar olması ilə bağlı tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssaslıq və qayğı ilə yanaşılması vurğulanıb. Eyni zamanda, ədliyyə orqanlarında əmək və icra intizamının möhkəmləndirilməsi, məhkəmə qərarlarının vaxtında və dürüst icrasına nəzarətin gücləndirilməsi, penitensiar sistemdə nizam-intizamın və mühafizənin möhkəmləndirilməsi, məhkumların tibbi təminatına diqqətin artırılması ilə bağlı və digər konkret tapşırıqlar verilib.

İclasda həmçinin, cari məsələlərə baxılıb, ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ akt layihələri müzakirə olunaraq təsdiq edilib, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri Şamaxıda vətəndaşları qəbul edib



**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq yanvarın 30-da ədliyyə naziri Fikrət Məmmədov Şamaxı rayonu Heydər Əliyev Mərkəzində Şamaxı, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.



Müşavirədə ədliyyə və məhkəmə fəaliyyətində şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı tapşırıqlar verilib, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarından və qanunvericiliyə edilmiş dəyişikliklərdən irəli gələn vəzifələrə toxunulub.

# Azərbaycan və Əlcəzair arasında hüquqi əlaqələr genişlənir



**Ölkəmizin xarici dövlətlərlə dostluq və əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr xüsusi yer tutur. Ötən il respublika ədliyyə nazirinin Əlcəzair Xalq Demokratik Respublikasına səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması iki ölkə arasında bağlanmış ilk sənəd olmaqla ikitərəfli münasibətlərin inkişafına təkan verib. Həmçinin hüquqi sahədə dövlətlərarası müqavilələrin bağlanması qərara alınaraq qısa müddətdə ekstradisiya sahəsində əməkdaşlığa dair müqavilə layihəsi hazırlanıb.**

Həmin layihənin müzakirəsi və razılaşdırılması məqsədilə Əlcəzair Ədliyyə Nazirliyinin Hüquqi və məhkəmə əməkdaşlığı Direktorluğunun direktoru Abdellatif Mahmoud Jaouder və şöbə müdiri xanım Ferhat Hafidadan ibarət nümayəndə heyəti 28 yanvar - 1 fevral tarixlərində Azərbaycanda səfərdə olub.



Qonaqlar əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri qoyub, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Səfər zamanı Ədliyyə Nazirliyində müqavilə layihəsi üzərində məhsuldar müzakirələr aparılıb, sənəd təkmilləşdirilərək paraflanıb və hər iki nazirliyin aidiyyəti idarələrinin rəhbərləri Abdellatif Jaouder və Adil Əbilov tərəfindən müvafiq razılaşma protokolu imzalanıb.

Sonra ədliyyə naziri Fikrət Məmmədov Əlcəzair nümayəndə heyəti ilə görüşüb.

Nazir ölkələrimizin hüquqi sahədə səmərəli əməkdaşlıq etdiyini bildirərək sənədin tezliklə imzalanacağına əminliyini ifadə edib, bu məqsədlə əlcəzairli həmkarını Azərbaycana səfərə dəvət edib. Həmçinin, qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu söyləyib, nazirliklərarası Anlaşma Memorandumunun daha intensiv implementasiyasının önəmini qeyd edib.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən qonaqlar respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduqlarını söyləyib, iki ölkənin Ədliyyə nazirlikləri arasında səmimi işgüzar münasibətlərin qurulduğunu, səfər zamanı aparılmış müzakirələrin səmərəli nəticələrini qeyd edib, Əlcəzairin ədliyyə naziri Əl-Tayyib Louhun salamlarını çatdırıblar.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətini, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, 20 Yanvar faciəsi və Xocalı soyqırımı ilə bağlı materialları əks etdirən xüsusi jurnallar və əyani vəsaitlər təqdim edilib.

Səfər çərçivəsində Əlcəzair nümayəndə heyəti Yasamal Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə sistemi, Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət"in fəaliyyəti, habelə Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi və mədəni-tarixi abidələri ilə tanış olublar.

# Məhkəmə qərarlarının icrası işi təkmilləşdirilir





**Ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına dair tapşırıqlarının icrası çərçivəsində məhkəmə qərarlarının icrası işi təkmilləşdirilir, bu məqsədlə əlavə təsirli tədbirlər görülür.**

Yanvarın 19-da Ədliyyə Nazirliyində icra xidmətinin bütün yerli qurumlarının, habelə nazirliyin müvafiq idarələrinin rəhbərlərinin iştirakı ilə 2017-ci ildə məhkəmə və digər orqanların qərarlarının icrası sahəsində görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.



Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Vilayət Zahirov ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində məhkəmə qərarlarının icrasının mühüm əhəmiyyətini vurğulayıb, icra işinin təkmilləşdirilməsi üzrə görülən tədbirlərin vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunmasına xidmət etdiyini söyləyib.

Sonra İcra baş idarəsinin rəisi - Baş icra məmuru Nurəddin Mustafayev hesabat məruzəsi ilə çıxış edib.

Bildirilib ki, əhalinin məhkəmələrə inamının təzahürü olaraq son illər baxılan işlərin sayının çoxalması icra xidmətində də iş həcminin əhəmiyyətli dərəcədə artmasına səbəb olub. 2017-ci ildə icrası təmin edilən işlərin sayı 60 faizə çataraq 415 mini ötüb, fiziki, hüquqi şəxslərə və dövlət büdcəsinə, o cümlədən vergi borcları ilə bağlı 562 milyon manatdan çox vəsait ödətdirilib. Bundan əlavə hesabat dövründə aliment işləri üzrə təqribən 125 milyon manatın tələbkarlara ödənilməsi təmin edilib. İcra sənədlərinin icrasından qərəzli boyun qaçıran, icra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 4.245 nəfər inzibati məsuliyyətə cəlb edilib, o cümlədən 2.878 şəxs məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, 391 şəxs barəsində cinayət işi başlanılıb.



Həmçinin, 14 mindən artıq borclunun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılıb, 3.410 nəfərin məhdudiyyəti isə məhkəmə qərarını icra etdiklərinə görə götürülüb. Qeyd olunmalıdır ki, belə məhdudlaşdırmanın olub-olmaması barədə vətəndaşlara elektron xidmət (http://exidmet.justice.gov.az/WebForms/VVA_13.aspx) göstərilir. Ötən il bu xidmətdən istifadənin sayı 66 faiz artaraq 1.3 milyona yaxın olub.

İcra işinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlər, o cümlədən təsirli icra mexanizmlərinin tətbiqi və məhkəmə qərarlarının vaxtında və dürüst icrasının təmin olunması, həmçinin vətəndaş məmnunluğunu yüksəldir. Ötən il icra işləri ilə bağlı şikayət edən vətəndaşların sayı 30%-dək, bilavasitə qəbula gələn şəxslərin sayı isə 2 dəfədən çox azalıb.

Diqqətə çatdırılıb ki, icra işinin səmərəli təşkili üzrə əlavə tədbirlər görülür, icra sahəsində

qanunvericilik təkmilləşdirilməklə məhkəmələr və icra qurumları arasında iş yükü bölgüsünə yenidən baxılıb, icra olunmuş icra sənədləri üzrə icraata xitam verilməsi və dayandırılması səlahiyyətlərinin icra məmurlarına verilməsi ilə bu sahədə operativliyə nail olunub, əlavə yazışmalara son qoyulub, vaxta və dövlət xərclərinə qənaət edilib

Bununla yanaşı, xidmətin maddi-texniki bazasının və infrastrukturunun möhkəmləndirilməsi yönündə tədbirlər görülüb, icra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın təmin olunması üçün "Elektron icra" sistemi yaradılıb. Artıq ötən ilin əvvəlindən bütün icra qurumlarına daxil olan icra sənədlərinin qeydiyyatı bu sistem vasitəsilə aparılır. Eyni zamanda, aidiyyəti dövlət qurumlarından borclu şəxslərə dair şəxsiyyət vəsiqəsi, doğum, nikah, ölüm, soyadın, adın və ata adının dəyişdirilməsi, nikahın pozulması, eləcə də vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsi, telefon nömrələri, vergi ödəyicisi barədə məlumatlar "Elektron icra" sisteminə tam inteqrasiya olunmaqla icra qurumlarının istifadəsinə verilib. Hazırda bu sistemin tətbiqi dairəsi genişləndirilir.

Müşavirədə görülən tədbirlərlə yanaşı, nöqsan və çatışmazlıqlar qeyd olunub, bəzi icra məmurları tərəfindən vəzifə borclarına laqeyd münasibət bəslənilməsi, icra intizamının, etik davranış qaydalarının pozulması, işlərin hərəkətsiz saxlanılması, icradan qərəzli şəkildə boyun qaçıran şəxslərin vaxtında inzibati məsuliyyətə cəlb olunmaması və digər neqativ hallar diqqətə çatdırılaraq onların aradan qaldırılması tələb edilib. Bildirilib ki, 2017-ci ildə fəaliyyətində yol verdikləri ciddi qanun pozuntularına görə xidmətin 31 əməkdaşı intizam məsuliyyətinə cəlb olunub, o cümlədən 5 nəfərin ədliyyə orqanlarında qulluğuna xitam verilib, 10 nəfər isə tutduğu vəzifədən azad edilib.

Mövcud problemlərlə bağlı nazirliyin məsul işçiləri və yerli icra qurumlarının rəhbərləri dinlənilib, nöqsanların səbəb və şəraitinin aradan qaldırılması yolları ətraflı təhlil edilib.

Müşavirəyə yekun vuran nazir müavini icra işinin səmərəliliyinin artırılması, məhkəmə qərarlarının vaxtında və dürüst icrasının təmin olunması, vətəndaşların müraciətlərinə daim qayğı və həssaslıqla yanaşılması, etik davranış qaydalarına dönmədən əməl olunması, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, icra məmurlarının peşəkarlığının artırılması ilə bağlı konkret tapşırıqlar verib.

# Probasiya xidmətinin qarşısında duran vəzifələr müzakirə olunub

**Yanvrarın 19-da Ədliyyə Nazirliyində Probasiya xidmətinin yerli qurumlarının rəhbərlərinin və probasiya üzrə icra məmurlarının iştirakı ilə 2017-ci ildə azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrası üzrə görülmüş işlərin və xidmətin qarşısında duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**

Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Vilayət Zahirov ölkə Prezidenti cənab İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən Probasiya xidmətinin yaradılması üzrə görülən tədbirlərdən danışıb, bununla bağlı qanunvericiliyin təkmilləşdirilməsini, probasiya nəzarətinin təsbit olunmasını qeyd edib, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında probasiya xidmətinin mühüm rolunu vurğulayıb.

Sonra Probasiya xidmətinin rəisi Akşin Ziyadov qurumun ötən dövrdəki fəaliyyəti və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

Bildirilib ki, azadlıqdan məhrum etmə cəzasının tətbiqinin azaldılması və daha çox alternativ cəzalara üstünlük verilməsi məqsədilə dövlət başçısı tərəfindən təsis edilmiş Probasiya xidmətinin işinin müasir tələblər səviyyəsində qurulması, cəzaların icrası zamanı müasir elektron nəzarət vasitələrinin geniş tətbiqi ilə bağlı Xidmətin monitorinq mərkəzinin təşkili üzrə tədbirlər görülür.

Qeyd olunub ki, azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası diqqətdə saxlanılaraq 2017-ci ildə 6.820 şəxsin cəza müddəti başa çatıb və ya təyin olunmuş cəzası tam icra edilib, yeni cinayət törədən məhkumların sayı 10 faiz azalıb. Cərimə və





islah işləri cəzalarının icrası ilə bağlı dövlət büdcəsinə ödənilən vəsaitin məbləği artaraq 1.5 milyon manata çatıb.

Eyni zamanda, 2017-ci il 17 oktyabr tarixli Qanunla Cinayət Məcəlləsinə mühüm dəyişikliklər edilərək bir çox əməllərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına və ya yüngülləşdirilməsinə səbəb olub. Probasiya xidməti tərəfindən yeni qanunun təsiri altına düşən şəxslərin dairəsi müəyyən olunaraq həmin məhkumlar barədə məhkəmələrə müvafiq təqdimatlar göndərilib.



İclasda görülən işlərlə yanaşı, bu sahədə nöqsan və çatışmazlıqlar qeyd olunaraq cərimə və ictimai işlər növündə cəzaların icrasına diqqətin artırılması, məhkumun cəzadan yayınmasının qarşısının alınması, onlarla aparılan islah və tərbiyə işinin keyfiyyətinin artırılması, probasiya nəzarətinin səmərəli təşkili ilə bağlı tapşırıqlar verilib, yerli qurumların rəhbərləri dinlənilərək, mövcud problemlərin həlli yolları təhlil edilib.

Müşavirəyə yekun vuran nazir müavini azadlıqdan məhrumetməyə alternativ cəzaların vaxtında və dürüst icrasına nail olunması, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, probasiya üzrə icra məmurlarının peşəkarlığının artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı konkret tapşırıqlar verib.

# Penitensiar xidmətdə əməliyyat müşavirəsi keçirilib

**Yanvarın 19-da Ədliyyə Nazirliyi Penitensiar xidmətində 2017-ci ilin yekunlarına həsr olunan əməliyyat müşavirəsi keçirilib.**

Müşavirədə xidmətin Baş idarəsinin, eləcə də tabe qurumların rəhbər heyəti və Ədliyyə Nazirliyinin müvafiq idarələrinin rəhbərləri iştirak ediblər.

Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov 2017-ci ildə qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi, penitensiar sistemin inkişafı, kadr potensialının gücləndirilməsi, həbs edilmiş şəxslərin, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması, həmçinin maddi-texniki bazanın, idarəetmənin təkmilləşdirilməsi, nizam-intizamın möhkəmləndirilməsi, habelə mövcud nöqsanların aradan qaldırılması üzrə görülən tədbirlərdən danışıb.

Qeyd edilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə cari ilin yanvarın 10-da keçirilmiş 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə qaldırılan məsələlərlə bağlı ədliyyə orqanlarının üzərinə düşən vəzifələrin icrası istiqamətində bir sıra kompleks tədbirlər nəzərdə tutulur.

Dövlət başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə"






10 fevral 2017-ci il tarixli Sərəncamının bu sahənin inkişafı prosesinin daha da genişləndirilməsi və növbəti mərhələyə keçməsi üçün zəmin yaratdığı vurğulanıb, bu mühüm sənədin icrası üzrə görülmüş işlərdən bəhs olunub.

Nazir müavini ölkə Prezidentinin humanist təşəbbüslə çıxış edərək uzun illər məhkumlara, onların ailələrinə qayğı ilə yanaşmasını davam etdirdiyini bildirərək, ötən ilin martında imzaladığı 423 nəfərin, onlardan azadlıqdan məhrum etmə cəzasını çəkən 414 məhkumun əfv edilməsi ilə bağlı Sərəncamın icrasının vaxtında həyata keçirildiyini vurğulayıb.





Sonra xidmətin rəis müavini Oqtay Məmmədov hesabat məruzəsi ilə çıxış edib. Bildirilib ki, həyata keçirilmiş axtarış-baxış tədbirləri nəticəsində 2017-ci il ərzində həbs edilmiş şəxslərdən, məhkumlardan və digər şəxslərdən 1170 manat və 700 ABŞ dolları məbləğində pul, 126 mobil telefon, 77 fakt üzrə 143,3 qram narkotik və psixotrop maddələr, 96,6 litr qıcqırdılmış maye aşkar edilərək götürülüb və həmin faktlar üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti hüquq-mühafizə orqanlarına təqdim olunub.

Digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyət nəticəsində 541 müxtəlif, o cümlədən qəsdən adam öldürmə ilə bağlı xüsusilə ağır cinayətlərin üstünün açılmasına köməklik göstərilib. Penitensiar xidmətin əməliyyat aparatının məlumatları əsasında daxili işlər orqanları ilə birgə keçirilən əməliyyat tədbirləri nəticəsində həbs edilmiş şəxslər və məhkumlar tərəfindən könüllü olaraq təqdim edilmiş 4 ədəd odlu silah götürülərək aidiyyəti orqanlara təhvil verilib.

Qeyd olunub ki, Baş idarədə və tabe qurumlarda təmir-abadlıq işləri aparılıb, iş şəraitinin yaxşılaşdırılması məqsədi ilə xidməti otaqlar yeni müasir tipli mebel dəstləri, zəruri avadanlıq və inventarla təchiz edilib. Bir sıra müəssisələrdə təbii qazla təchizat problemi tamamilə həll edilib, yeni qaz xətləri çəkilib, istismar müddəti başa çatmış elektrik avadanlıqları və kabelləri yenilənib, müasir tipli istilik sistemləri quraşdırılaraq istifadəyə verilib.

2017-ci il ərzində yeni istehsalat sahələri yaradılıb, ayri-ayri cəzaçəkmə müəssisələrində metal tor, mismar, mebel, üzlük daşlar, polietilen torbalar, corab, yataq dəsti və s. istehsal edən sexlər təşkil olunub, tərəvəz yetişdirilməsi üçün istixanalar təşkil edilib.

Aparılmış məqsədyönlü profilaktiki iş cinayətlə vurulmuş maddi ziyanın məhkumlar tərəfindən ödənilməsi sahəsində də nəticəsini verib, təqsirləndirilən şəxslər və məhkumlar tərəfindən törətdikləri cinayət nəticəsində vurmuş olduqları 22 milyon manata yaxın pul ödənilib.

Tədbirdə nazirliyin məsul işçilərinin və Penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

Müşavirəyə yekun vuran nazir müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov əldə olunan müsbət nailiyyətlərlə yanaşı, fəaliyyətdə nöqsan və çatışmazlıqların da mövcud olduğunu qeyd edərək, məhkumların və təqsirləndirilən şəxs-

lərin hüquqlarının daha etibarlı təmin olunması, əməliyyat-axtarış və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, rejim və davranış qaydalarına dönmədən riayət olunması, qanunsuz əşyaların ötürülməsi və dövriyyəsinin qarşısının alınması məqsədilə preventiv tədbirlərin həyata keçirilməsinə dair tabe qurumlar qarşısında duran tələbləri irəli sürüb, tapşırıqlar verib.

Eyni zamanda nizam-intizamın gücləndirilməsi, islah və tərbiyə işinin səmərəliliyinin artırılması, penitensiar müəssisələrdə istehsalat sahələrinin genişləndirilməsi və kadrlarla işin təkmilləşdirilməsi istiqamətində səylərin artırılmasının, özbaşınalıq, vəzifə səlahiyyətlərindən sui-istifadə, korrupsiya halları ilə mübarizənin daim diqqət mərkəzində saxlanılmasının vacibliyi vurğulanıb.

# Probasiya üzrə icra məmurlarının maarifləndirilməsi diqqət mərkəzindədir

**Yanvarın 30-da Ədliyyə Akademiyasında icra məmurları (probasiya üzrə) üçün "Probasiya xidməti və cəza siyasətinin humanistləşdirilməsinin əsas vəzifələri" mövzusunda ixtisasartırma kursu keçirilib.**



30-dan çox dinləyicinin iştirak etdiyi təlimin açılışında Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov və Probasiya xidmətinin rəisi Akşin Ziyadov çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının müstəsna əhəmiyyətindən bəhs edib, bu mühüm sənədin icrası üzrə görülən əhatəli qanunvericilik və institusional tədbirlərdən, probasiya nəzarətinin təsbit olunmasından, bu institutun mahiyyətindən danışıb, keçirilən təlimin aktuallığını və əhəmiyyətini qeyd ediblər.

Sonra təlim xidmətin rəhbər və məsul əməkdaşlarının "Probasiya xidmətinin fəaliyyət istiqamətləri, vəzifələri və bu xidmətin işinin təşkili", "Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasının təşkili", "Azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların icrası ilə bağlı probasiya nəzarətinin həyata keçirilməsi" mövzularında mühazirələri ilə davam edib, diskussiyalar keçirilərək iştirakçıları maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.



Akademiya tərəfindən probasiya sahəsi ilə bağlı təlimlərin mütəmadi keçirilməsi nəzərdə tutulur.

## 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 yanvar 2018-ci il*
*№ 3568*

## 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da

azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 18 yanvar 2018-ci il*
*№ 3587*

### Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 2-ci, 3-cü, 4-cü və 7-ci bəndlərini rəhbər tutaraq, 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Seçki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N 6, maddə 274, N 12, I kitab, maddə 680; 2004, N 6, maddə 416, N 11, maddə 891; 2005, N 2, maddə 62, N 4, maddə 278, N 7, maddələr 576, 584, N 12, maddə 1091; 2007, N 7, maddə 712; 2008, N 6, maddə 457; 2009, N 2, maddə 44; 2010, N 4, maddə 276, N 7, maddə 592; 2011, N 3, maddə 163; 2012, N 5, maddə 409; 2013, N 6, maddə 592; 2015, N 5, maddə 490; 2017, N 5, maddə 705) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddədə "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə əvəz edilsin.

2. 25.2.6-cı maddədən "seçki bülleteninin qoyulması üçün zərflərin," sözləri, 25.2.11-ci və 31.1.5-ci maddələrdən "seçki bülletenlərinin qoyulması üçün zərflərin," sözləri çıxarılsın.

3. 42.2.9-cu maddədə "möhürləndiyi" sözü "kilidləndiyi" sözü ilə əvəz edilsin.

4. 47.9-cu maddədən "vəsiqələri paylandıqdan və seçici" sözləri çıxarılsın.

5. 53-cü maddə üzrə:

5.1. 53.6-cı maddənin birinci cümləsində "qərar" sözü "qərarı, həmçinin seçicilərin imzalarının toplanması üçün imza vərəqələrini" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İmza vərəqələrini götürən namizəd və ya onun səlahiyyətli nümayəndəsi hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.";

5.2. 53.7-ci maddədə "sürülməsini təsdiq edən qərarın surətini verməkdən" sözləri "sürülməsinin təsdiq olunmasından" sözləri ilə əvəz edilsin.

6. 54-cü maddə üzrə:

6.1. 54.9-cu maddəyə aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Seçki komissiyası namizədin təsdiq olunması barədə qərar qəbul etdikdə, həmin qərarı və seçicilərin imzalarının toplanması üçün imza vərəqələrini siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə təqdim edir. İmza vərəqələrini götürən səlahiyyətli nümayəndə hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.";

6.2. 54.10-cu maddənin birinci cümləsində "Namizədin qeydə alınmasından" sözləri "İrəli sürülmüş namizədin təsdiq olunmasından" sözləri ilə əvəz edilsin.

7. 59.3-cü maddənin dördüncü cümləsində "İmza" sözü "Bu Məcəllənin 59.4-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, imza" sözləri ilə əvəz edilsin.

8. 73-1.2-ci maddənin dördüncü cümləsi çıxarılsın.

9. 90.7-ci maddədə "Teleradio verilişləri təşkilatlarına və dövri nəşrlərin redaksiyalarına pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərini ödədikdən sonra, qeydə" sözləri "Qeydə" sözü ilə əvəz edilsin.

10. 100-cü maddə üzrə:

10.1. 100.2.2-ci və 100.2.7-ci maddələrdən "(Milli Məclisə seçkilər və bələdiyyə seçkiləri istisna olmaqla)" sözləri çıxarılsın;

10.2. 100.2.13-cü maddədən "olan zərflərdə" sözləri çıxarılsın.

11. 103.4-cü maddənin birinci cümləsində "möhürlənir" sözü "kilidlənir" sözü ilə, ikinci cümləsində "Möhürlər" sözü "Kilidlər" sözü ilə əvəz edilsin.

12. 104-cü maddə üzrə:

12.1. 104.5-ci maddədə "möhürləyir" sözü "kilidləyir" sözü ilə əvəz edilsin;

12.2. 104.6-cı maddənin birinci cümləsindən "seçici vəsiqələrini," sözləri çıxarılsın;

12.3. 104.7-ci maddənin birinci cümləsindən "seçici vəsiqəsi ilə birlikdə" sözləri çıxarılsın;

12.4. 104.7-ci maddə (ikinci halda) ləğv edilsin.

13. 105.2-ci maddənin beşinci cümləsi çıxarılsın.

14. 106.1-ci maddənin beşinci cümləsindən "və zərf" sözləri çıxarılsın, yeddinci cümləsində "möhür və plomblarının" sözləri "kilidlərinin (daşınan seçki qutusunda isə həmçinin yarığın üzərindəki möhürün)" sözləri ilə əvəz edilsin.

15. 107.4-cü maddənin birinci cümləsindən və 108.3-cü maddənin birinci cümləsindən "zərflərin və" sözləri çıxarılsın.

16. 145.1-ci maddəyə "hissəsinə" sözündən sonra ", 981-ci maddəsinin II hissəsinin ikinci cümləsinə" sözləri əlavə edilsin.

17. 148.6-cı maddənin birinci cümləsindən "namizəd irəli sürmüş və ya" sözləri çıxarılsın.

18. 153-cü maddə üzrə:

18.1. 153.1-ci maddədə "73-cü" sözləri "73-1-ci" sözləri ilə əvəz edilsin;

18.2. 153.2-ci maddədə "73.1-73.2-ci" sözləri "73-1.1-ci və 73-1.2-ci" sözləri ilə əvəz edilsin.

19. 162-ci, 164-cü, 195-ci və 197-ci maddələr ləğv edilsin.

20. 173.2-ci maddənin ikinci cümləsində "73.3-cü" sözləri "73-1.3-cü" sözləri ilə əvəz edilsin.

21. 175.3-cü maddə üzrə:

21.1. birinci cümlədə "2, 4 və 5-ci" sözləri "2-ci, 4-cü, 5-ci, 6-cı və 7-ci" sözləri ilə əvəz edilsin;

21.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Mərkəzi Seçki Komissiyasının bu barədə qərarı rəsmi dərc edildiyi gündən 10 gün müddətində həmin qərardan apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.";

21.3. aşağıdakı məzmunda üçüncü-beşinci cümlələr əlavə edilsin:

"Həmin şikayətə 15 gün müddətində baxılmalıdır. İş üzrə apellyasiya instansiyası məhkəməsinin qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər. Bu şikayətə 15 gün müddətində baxılmalıdır.".

22. 176-cı maddə üzrə:

22.1. 176.1-ci maddəyə "müraciət" sözündən sonra "(rəsmi məlumat)" sözləri əlavə edilsin;

22.2. 176.2-ci maddədə "ərizə" sözündən sonra "(rəsmi məlumat)" sözləri, "ərizədə" sözündən sonra

"(rəsmi məlumatda)" sözləri əlavə edilsin;

22.3. aşağıdakı məzmunda 176.2-1-ci maddə əlavə edilsin:

"176.2-1. Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 6-cı və 7-ci bəndlərində göstərilən hallarla əlaqədar Mərkəzi Seçki Komissiyasına Milli Məclisin rəsmi məlumatı daxil olduqdan sonra 15 gündən gec olmayaraq Mərkəzi Seçki Komissiyası həmin rəsmi məlumatı müzakirə edərək müvafiq qərar qəbul edir.";

22.4. 176.3-cü maddədə "və 5-ci" sözləri ", 5-ci, 6-cı və 7-ci" sözləri ilə əvəz edilsin;

22.5. 176.4-cü maddədə "bir ay müddətində" sözlərindən sonra "(deputatın mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarından məhkəməyə şikayət verdiyi hallar istisna olmaqla)" sözləri və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Deputatın mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarından məhkəməyə şikayət verdiyi hallarda müvafiq birmandatlı seçki dairəsi üzrə əlavə seçkilər məhkəmədə işə baxılmasının nəticələrindən asılı olaraq təyin edilir.".

23. 179-cu maddə üzrə:

23.1. 179.1-ci maddənin birinci cümləsində "bitərsə," sözündən sonra "habelə Konstitusiyanın 101-ci maddəsinin I hissəsinin ikinci cümləsinə əsasən Prezidentin elan etdiyi halda" sözləri əlavə edilsin, ikinci cümləsində "Bu hal" sözləri "Konstitusiyanın 104-cü maddəsində nəzərdə tutulmuş hallar" sözləri ilə əvəz edilsin;

23.2. 179.2-ci maddədə "edildiyi" sözündən sonra ", həmçinin Konstitusiyanın 101-ci maddəsinin I hissəsinin ikinci cümləsinə əsasən Prezident növbədənkənar Prezident seçkilərini elan etdiyi" sözləri əlavə edilsin, "3 ay ərzində" sözləri "60 gün müddətində" sözləri ilə əvəz edilsin.

24. 187-ci maddədə "73-cü" sözləri "73-1-ci" sözləri ilə əvəz edilsin.

25. 212-ci maddədə "Seçkilər günü 21 yaşı tamam olan (seçki günü də daxil olmaqla) və yaşı 21-dən yuxarı" sözləri "Seçkilərdə iştirak etmək hüququna malik" sözləri ilə əvəz edilsin.

26. 221-ci maddə üzrə:

26.1. 221.1-ci maddədə "73-cü" sözləri "73-1-ci" sözləri ilə əvəz edilsin;

26.2. 221.2-ci maddədə "73.1-73.3-cü" sözləri "73-1.1-ci və 73-1.2-ci" sözləri ilə əvəz edilsin.

27. 1 "A" saylı əlavədə "Deputatlığa namizədin, siyasi" sözləri "Siyasi" sözü ilə əvəz edilsin.

28. 2 "A" saylı əlavədə "Prezidentliyə namizədin, siyasi" sözləri "Siyasi" sözü ilə əvəz edilsin.

29. 3 "A" saylı əlavədə "Bələdiyyə üzvlüyünə namizədin, siyasi" sözləri "Siyasi" sözü ilə əvəz edilsin.

30. 4 saylı əlavənin "Qeyd"i ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 dekabr 2017-ci il*
*№ 917-VQD*

### Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4, I kitab, maddə 250, N 5, maddə 323; 2002, N 12, maddə 709; 2003, N 8, maddə 420; 2004, N 3, maddə 123, N 5, maddə 318, N 6, maddə 415, N 10, maddə 761, N 11, maddə 901; 2005, N 2, maddə 61, N 6, maddə 466, N 8, maddələr 684, 692, 693, N 11, maddə 996, N 12, maddə 1085; 2006, N 2, maddə 68, N 3, maddə 225, N 5, maddə 387, N 6, maddə 478, N 8, maddə 657, N 12, maddə 1005; 2007, N 2, maddə 80, N 6, maddə 560, N 8, maddə 745, N 10, maddə 937, N 11, maddə

1053, N 12, maddələr 1215, 1219; 2008, N 3, maddə 145, N 6, maddə 456, N 7, maddə 602, N 12, maddə 1049; 2009, N 2, maddə 47, N 5, maddə 295, N 6, maddə 404, N 7, maddə 517; 2010, N 2, maddə 75, N 3, maddə 171, N 4, maddələr 265, 266, 276; 2011, N 2, maddə 71, N 7, maddə 586, N 8, maddə 750, N 12, maddələr 1073, 1102; 2012, N 1, maddə 5, N 5, maddə 403, N 6, maddə 498; 2013, N 1, maddə 15, N 6, maddə 620, N 11, maddə 1280, N 12, maddələr 1469, 1478; 2014, N 2, maddə 96, N 7, maddə 768; 2015, N 3, maddə 254, N 5, maddə 512, N 7, maddə 814, N 10, maddə 1093; 2016, N 1, maddə 26, N 2, I kitab, maddələr 186, 204, N 3, maddə 401, N 4, maddələr 640, 646, N 6, maddə 1005, N 7, maddə 1248, N 12, maddələr 1998, 2018; 2017, N 2, maddələr 151, 153, N 4, maddə 524, N 5, maddələr 703, 735, N 6, maddə 1035; Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 797-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 144-cü maddə üzrə:

1.1.1. 144.2-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"144.2-1. Sərəncam verən tərəfin sərəncam hüququnun və öhdəliklərinin, eləcə də əmlakın mövcud yüklülüyünün daşınmaz əmlakın dövlət reyestrində yoxlanılması məqsədilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq notariuslarla daşınmaz əmlakın dövlət reyestri arasında məlumat və sənəd mübadiləsi imkanı, o cümlədən notariusların daşınmaz əmlakın dövlət reyestrinə elektron qaydada birbaşa çıxışı təmin olunmalıdır.";

1.1.2. 144.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"144.3. Notarius daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair müqaviləni təsdiqlədikdən dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə göndərməlidir. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılmasına dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq hüquqlar dövlət qeydiyyatına alınır.";

1.1.3. 144.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"144.5. Daşınmaz əmlaka mülkiyyət hüququ əmlakın fiziki cəhətdən bölünməsini nəzərdə tutmayan, lakin yaranacaq ümumi paylı mülkiyyətdə payların nisbətini faizlə müəyyənləşdirən bölünmə planı əsasında bölünə bilər. Mülkiyyətçi tərəfindən tərtib edilən belə bölünmə planı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təsdiq edildikdən sonra mülkiyyətçinin bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır.".

1.2. Aşağıdakı məzmunda 144-1-ci maddə əlavə edilsin:

"Maddə 144-1. Tikintisi başa çatmayan binanın tərkib hissələrinə sərəncam verilməsinin xüsusiyyətləri

144-1.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə müvafiq olaraq tikintisinə icazə alınmış, lakin həmin Məcəlləyə uyğun olaraq istismarına icazə verilməmiş binalar tikintisi başa çatmayan binalar hesab edilir.

144-1.2. Mülkiyyətindəki torpaq sahəsində tərkib hissələrdən ibarət binanın tikintisinə icazə almış mülkiyyətçi tikiləcək binanın tərkib hissələrinin sayına və sahəsinə mütənasib olaraq həmin torpaq sahəsini bu Məcəllənin 144.5-ci maddəsində nəzərdə tutulmuş qaydada bölünmə planı əsasında paylara bölə bilər və bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququnun qeydə alınmasını tələb edə bilər.

144-1.3. Mülkiyyətindəki torpaq sahəsində tərkib hissələrdən ibarət binanın tikintisinə icazə almış şəxs bölünmə planına əsasən yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqdan sonra sərəncam verə bilər.

144-1.4. Bölünmə planına əsasən mülkiyyətindəki torpaq sahəsində yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməli və tərkib hissələri əldə edən şəxslərin xeyrinə bu Məcəllənin 147-ci maddəsinə uyğun olaraq təminat qeydi aparılmalıdır.

144-1.5. Bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə digər müddəalarla yanaşı, tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların alqı-satqı şərtləri, təminat qeydinin aparılmasına dair torpaq sahəsi mülkiyyətçisinin və

torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin bu Məcəllənin 178.8-ci maddəsində nəzərdə tutulan öhdəlikləri və 147.2-ci maddəsində nəzərdə tutulan razılıqları, habelə bu Məcəllənin 178.8-ci maddəsində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsindən sonra torpaq sahəsində müvafiq paya və tərkib hissəyə mülkiyyət hüququnun xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı açıq-aydın ifadə edilməlidir.

144-1.6. Xeyrinə təminat qeydi aparılmış şəxs tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissənin bağlı olduğu pay ilə əlaqədar hüquqlarını və öhdəliklərini yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisini məlumatlandırmaqla notariat qaydasında təsdiq edilmiş müqavilə əsasında üçüncü şəxsə ötürə bilər. Müqavilədə digər müddəalarla yanaşı, hüquqların və öhdəliklərin ötürüldüyü məqamda mövcud olmuş həcmi və həmin həcmdə ötürülməsi, aparılmış təminat qeydində hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklərin edilməsinə dair hər iki tərəfin razılıqları aydın şəkildə ifadə edilməlidir. Belə hüquqlar və öhdəliklər onların üçüncü şəxsə ötürüldüyü məqamda mövcud olmuş həcmdə və şərtlərlə ötürülməlidir. Notarius bu müqaviləni təsdiqlədikdən dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə, habelə təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisinə göndərməlidir. Belə müqavilə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydində müvafiq dəyişikliklərin edilməsinə dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq qeydiyyat hərəkətləri aparılır.".

1.3. 146.6-cı maddə ləğv edilsin.

1.4. 147-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 147. Torpaq sahəsi barədə təminat qeydi

147.1. Torpaq sahəsi (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) ilə bağlı hər hansı hüququn əldə edilməsinə yönəlmiş tələbləri təmin etmək məqsədilə daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsi barədə təminat qeydi aparıla bilər. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylarla əlaqədar təminat qeydinin aparılmasının xüsusiyyətləri bu maddənin tələbləri nəzərə alınmaqla, bu Məcəllənin 144-1-ci maddəsində müəyyən olunur.

147.2. Təminat qeydinin aparılması üçün torpaq sahəsinin mülkiyyətçisi ilə torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxs arasında notarial formada bağlanılmış müqavilə tələb olunur. Müqavilədə digər müddəalarla yanaşı, torpaq sahəsinin mülkiyyətçisinin öz mülkiyyətində olan torpaq sahəsi barədə təminat qeydinin aparılmasına və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin həmin torpaq sahəsi barədə öz xeyrinə təminat qeydinin aparılmasına dair razılıqları, habelə müvafiq tələblər yerinə yetirildikdən sonra müqavilədən irəli gələn hüquqların xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı aydın şəkildə ifadə edilməlidir.

147.3. Təminat qeydi daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı vaxtdan yaranır.

147.4. Torpaq sahəsi barədə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə həmin torpaq sahəsi barədə növbəti təminat qeydi aparıla bilməz.

147.5. Daşınmaz əmlakın dövlət reyestrini aparan orqanın və notariusların torpaq sahəsi barədə təminat qeydinin aparılması ilə bağlı hərəkətləri bu Məcəllə, "Notariat haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

147.6. Notarius təminat qeydinin aparılması üçün bağlanılması nəzərdə tutulan müqavilənin qanunauyğunluğunu müəyyən etdikdən sonra onu notariat qaydasında təsdiq edib daşınmaz əmlakın dövlət reyestrinə göndərir və daşınmaz əmlakın dövlət reyestrində 3 gün ərzində təminat qeydi aparılır.

147.7. Torpaq sahəsi barədə təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə həmin torpaq sahəsinə və ya ona olan hüquqa dair bağlanan müqavilələr və (və ya) digər formada verilən sərəncamlar təminat qeydinin əsası olmuş tələbin həyata keçirilməsinə təsir etdiyi və ya mane olduğu hissədə etibarsızdır. Həmin qayda sərəncamın məcburi icra və ya həbsin qoyulması qaydasında və ya əmlak inzibatçısı tərəfindən iflas prosesi zamanı verildiyi halda da tətbiq edilir.

147.8. Daşınmaz əmlakın dövlət reyestrində tor-

paq sahəsi barədə aparılmış təminat qeydi aşağıdakı hallarda öz hüquqi qüvvəsini itirir:

147.8.1. xeyrinə təminat qeydi aparılmış şəxsin bu Məcəllənin 147.2-ci maddəsində nəzərdə tutulan müqavilədən irəli gələn hüquqları bu Məcəlləyə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqda;

147.8.2. bu Məcəllənin 147.2-ci maddəsində nəzərdə tutulan müqavilə bu Məcəllənin 421-424-cü maddələrinə uyğun olaraq ləğv edildikdə;

147.8.3. aparılmış təminat qeydində bu Məcəllənin 144-1.6-cı maddəsində nəzərdə tutulan müqavilə əsasında hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklər edildikdə.

147.9. Torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsi üçün bu Məcəllənin 147.2-ci maddəsinə uyğun olaraq bağlanılan müqavilədə xeyrinə təminat qeydi aparılan şəxsin ipoteka kreditindən istifadə etmək imkanı müəyyən edildiyi halda, şəxs həmin torpaq sahəsinin əldə edilməsinin maliyyələşdirilməsi məqsədi ilə ipoteka müqaviləsi bağlaya bilər. Həmin ipoteka yalnız ipoteka predmeti olan torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsinin maliyyələşdirilməsi üçün istifadə olunan kreditin təminatına xidmət edə bilər.".

1.5. 178-ci maddə üzrə:

1.5.1. 178.1-ci maddənin birinci cümləsində "mülkiyyət hüququ" sözlərindən sonra "qanunla müəyyənləşdirilmiş əsaslarla" sözləri əlavə edilsin;

1.5.2. 178.8-ci maddə aşağıdakı redaksiyada verilsin;

"178.8. Tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxslə binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi (satıcı) arasında bu Məcəllənin 39-cu fəsli ilə nəzərdə tutulan podrat münasibətləri əmələ gəlir və belə münasibətlərdə torpaq sahəsinin mülkiyyətçisi (satıcı) podratçı, tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxs isə sifarişçi hesab edilir. Bu zaman digər öhdəliklərlə yanaşı, satıcı (podratçı) bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə müəyyənləşdirilən müddətdə binanın tikintisini başa çatdırmaq və istismarına icazə almaq, tərkib hissəni əldə etmək istəyən şəxs (sifarişçi) isə razılaşdırılmış məbləği hissə-hissə vaxtında satıcıya ödəmək vəzifəsi daşıyır. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisinin (satıcının, podratçının) və (və ya) həmin binanın tərkib hissəsini əldə etmək istəyən şəxsin dəyişməsi onlar arasında yaranan münasibətlərə bu Məcəllənin 39-cu fəslində nəzərdə tutulan podrat münasibətlərinin tətbiqini istisna etməməlidir.".

1.6. 232-ci maddənin birinci cümləsində "qabaqcadan onu daşınmaz əmlakın dövlət reyestrində qeydə aldırmış" sözləri "daşınmaz əmlakın dövlət reyestrində xeyrinə təminat qeydi aparılmış" sözləri ilə əvəz edilsin.

1.7. 252.6-cı maddədə "qabaqcadan qeydə alına" sözləri "təminat qeydi aparıla" sözləri ilə əvəz edilsin.

1.8. 394-cü maddədə "əşyaya mülkiyyəti" sözlərindən sonra "və ya digər əşya hüquqlarını" sözləri əlavə edilsin.

1.9. Aşağıdakı məzmunda 648.3-cü maddə əlavə edilsin:

"648.3. Alqı-satqı müqaviləsinin predmetini digər müddəalarla yanaşı, tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar təşkil edirsə, alıcının üzərinə həmin payların alış qiymətini tikinti başa çatmazdan əvvəl tam şəkildə ödəmək öhdəliyi qoyula bilməz. Bu zaman ödəmələr bu Məcəllənin 770-1-ci maddəsində nəzərdə tutulmuş şərtlər nəzərə alınmaqla və tikintinin mərhələləri üzrə hissələrlə həyata keçirilməlidir.".

1.10. Aşağıdakı məzmunda 770-1-ci maddə əlavə edilsin:

"Maddə 770-1. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların özgəninkiləşdirilməsi zamanı yaranan podrat münasibətlərində alış qiymətinin (muzd) ödənilməsi

770-1.1. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların özgəninkiləşdirilməsi zamanı yaranan podrat münasibətlərində alış qiymətinin (muzdun) ödənilməsi yalnız aşağıdakı şərtlər mövcud olduqda tələb edilə bilər:

770-1.1.1. bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilə notarial qaydada təsdiq edilmişdirsə;

770-1.1.2. daşınmaz əmlakın dövlət reyestrində binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar barədə əldə edənin xeyrinə

təminat qeydi aparılmışdırsa.

770-1.2. Bu Məcəllənin 770-1.1-ci maddəsində müəyyən edilən şərtlər tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar üzərində mülkiyyət hüququnun keçməsi barədə satıcı qismində çıxış edən podratçının öhdəlik götürdüyü hallara da şamil edilir.

770-1.3. Bu Məcəllənin 770-1.1-ci və 770-1.2-ci maddələrində nəzərdə tutulan müqavilələrdə ayrı mərhələ və hissələr nəzərdə tutulmayıbsa, alış qiymətinin (muzdun) ödənilməsi tikintinin mərhələləri üzrə hissələrlə aşağıda göstərilən faizlərdən çox olmamaq şərti ilə aparıla bilər:

770-1.3.1. torpaq-qazma işlərinin başlanılmasından sonra - müqavilə məbləğinin 30 faizi;

770-1.3.2. tikilinin yan və daxili divarları, dam örtüyü hazır olduqdan sonra - müqavilə məbləğinin 10 faizi;

770-1.3.3. dam səthlərinin və navalçaların (novların) qurulması işləri başa çatdıqdan sonra - müqavilə məbləğinin 8 faizi;

770-1.3.4. istilik təchizatı sistemlərinin quraşdırılması başa çatdıqdan sonra - müqavilə məbləğinin 3 faizi;

770-1.3.5. su xətlərinin çəkilməsi başa çatdıqdan sonra - müqavilə məbləğinin 3 faizi;

770-1.3.6. elektrik xətlərinin çəkilməsi başa çatdıqdan sonra - müqavilə məbləğinin 3 faizi;

770-1.3.7. pəncərələrin quraşdırılması (şüşələrin taxılması da daxil olmaqla) başa çatdıqdan sonra - müqavilə məbləğinin 10 faizi;

770-1.3.8. daxili suvaq (malalama) işləri başa çatdıqdan sonra - müqavilə məbləğinin 6 faizi;

770-1.3.9. birdən artıq tərkib hissəsi olan binada birdən artıq tərkib hissəyə xidmət edən sahələrin döşəmələri hazır olduqdan sonra - müqavilə məbləğinin 3 faizi;

770-1.3.10. fasad işləri başa çatdıqdan sonra - müqavilə məbləğinin 10 faizi;

770-1.3.11. su anbarı da daxil olmaqla, binaya xidmət edən və binadan ayrıca inşa edilən obyektlərin tikintisi başa çatdıqdan sonra - müqavilə məbləğinin 9 faizi;

770-1.3.12. bina tam hazır olduqdan və onun istismarına icazə verildikdən sonra - müqavilə məbləğinin 5 faizi.

770-1.4. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların alqı-satqı müqavilələrinə bu Məcəllənin daşınmaz əşyaların alqı-satqısı haqqında müddəaları müvafiq surətdə tətbiq edilir.".

**Maddə 2.** Bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

**Maddə 3.** Bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə minənədək Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq bina, habelə onun tərkib hissələri barəsində aparılmış qabaqcadan qeydiyyat və onun hüquqi nəticələri həmin maddələr qüvvəyə mindikdən sonra da öz hüquqi qüvvəsini saxlayır və daşınmaz əmlakın dövlət reyestrində müvafiq hüquqların qeydə alınması üçün əsasdır. Bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə minənədək aparılmış qabaqcadan qeydiyyat öz hüquqi qüvvəsini saxladığı müddətdə onunla əlaqədar məsələlər Azərbaycan Respublikası Mülki Məcəlləsinin və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun qabaqcadan qeydiyyatın aparıldığı günə mövcud olmuş müvafiq normaları ilə tənzimlənir.

**Maddə 4.** Bu Qanun, bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə minənədək, tikintisi başa çatdırılmamış daşınmaz əmlak üzərində "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq qabaqcadan qeydiyyatın aparılmasından imtinaya əsas ola bilməz.

**Maddə 5.** Üzərində hüquqlar qabaqcadan qeydiyyata alınmış bina, habelə onun tərkib hissələri barəsində bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.3-cü, 1.4-cü, 1.5.2-ci, 1.6-cı, 1.7-ci, 1.9-cu və 1.10-cu maddələri qüvvəyə mindikdən sonra, bu Qanunun 1.1.3-cü, 1.2-ci, 1.4-cü, 1.5.2-ci və 1.9-cu maddələrinin tələbləri nəzərə alınmaqla, tərəflərin razılaşması ilə təminat qeydi aparıla bilər. Bu halda daşınmaz əmlakın dövlət reyestrində aparılmış qabaqcadan qeydiyyat təminat qeydi ilə əvəz edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 dekabr 2017-ci il*
*№ 918-VQD*

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 144.5-ci maddəsinə uyğun olaraq, bu Fərmanın 2.2-ci bəndinin tələbləri əsasında bölünmə planının razılaşdırılması qaydasını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində müəyyən etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 144.5-ci maddəsinə əsasən tərtib edilən ümumi paylı mülkiyyətdə payların nisbətini müəyyənləşdirən bölünmə planını notarius təsdiq edir;

2.2. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 144.5-ci maddəsinə əsasən tərtib edilən, tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların nisbətini müəyyənləşdirən bölünmə planı notarius tərəfindən təsdiq edilməzdən əvvəl yerli icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 609; 2001, N 10, maddə 640; 2003, N 8, maddə 435, N 10, maddə 552; 2004, N 6, maddə 435; 2005, N 2, maddə 64, N 5, maddə 403; 2006, N 7, maddə 590, N 12, maddə 1034; 2007, N 3, maddə 228, N 6, maddə 606, N 11, maddə 1110, N 12, maddə 1246; 2008, N 6, maddə 493; 2009, N 3, maddə 163, N 5, maddə 324; 2010, N 5, maddə 399, N 7, maddələr 610, 628; 2011, N 8, maddə 751; 2012, N 6, maddə 535; 2014, N 6, maddə 626; 2016, N 9, maddə 1464, N 12, maddə 2071; 2017, N 2, maddə 186) 3.2-ci bəndində "105.4-cü," sözlərindən sonra "144.5-ci," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 fevral 2018-ci il*
*№ 1807*

## ”Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305; Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 813-VQD nömrəli Qanunu) 31-ci maddəsinin birinci hissəsinə "cinayət işlərinə" sözlərindən sonra ", habelə inzibati xətalar haqqında işlərə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 dekabr 2017-ci il*
*№ 927-VQD*

### ”Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 2, maddə 62; 2004, N 2, maddə 57, N 3, maddə 133) 1-ci maddəsinin birinci hissəsinin 8-ci bəndində "islah işləri" sözləri "ictimai işlər" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 dekabr 2017-ci il*
*№ 930-VQD*

### ”Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 19; 2001, N 12, maddə 736; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 8, maddə 599, N 10, maddə

787; 2005, N 8, maddə 686; 2006, N 12, maddə 1005; 2007, N 4, maddə 322; 2009, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 5, maddə 375; 2011, N 2, maddə 71, N 6, maddə 478; 2013, N 11, maddə 1272; Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 855-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 16-cı maddənin III hissəsində "prosessual qanunvericiliyi" sözləri "Cinayət-Prosessual Məcəlləsi və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə, inzibati xətalar haqqında işlər üzrə icraatda müdafiəçi və ya nümayəndə qismində iştirakını istisna edən hallar isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi" sözləri ilə əvəz edilsin.

2. 20-ci maddənin I hissəsinin birinci cümləsində "Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və" sözləri "İnzibati qaydada tutulmuş şəxslərə," sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 dekabr 2017-ci il*
*№ 936-VQD*

## ”İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156; 2017, N 6, maddə 1056, N 8, maddə 1511) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-1-ci maddədə "443, 444, 445.1, 446, 447.3, 448, 451-ci" sözləri "142, 143, 144.1, 145, 146.3, 147, 150-ci" sözləri ilə əvəz edilsin.

2. 13-cü maddə üzrə:

2.1. 13.1.1-ci maddəyə "bu Qanunun" sözlərindən sonra "13.1.3-2-ci," sözləri əlavə edilsin;

2.2. 13.1.3-cü maddədən "və inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları" sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 13.1.3-1-ci və 13.1.3-2-ci maddələr əlavə edilsin:

"13.1.3-1. bu Qanunun 13.1.3-2-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları - on gün ərzində;

13.1.3-2. inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150-ci maddəsində müəyyən edilmiş müddətlər ərzində.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 dekabr 2017-ci il*
*№ 941-VQD*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 1, maddə 1, N 3, maddə 131; 2002, N 12, maddə 693; 2003, N 1, maddə 16; 2004, N 1, maddə 10, N 4, maddə 199, N 5, maddə 321, N 8, maddə 597, N 11, maddə 884; 2005, N 6, maddələr 463, 475, N 10, maddə 874; 2006, N 5, maddə 386, N 6, maddə 479, N 8, maddə 657, N 11, maddə 927, N 12, maddələr 1005, 1014; 2007, N 2, maddə 83, N 5, maddələr 434, 436, N 7, maddə 711, N 10, maddə 934, N 11, maddələr 1049, 1074, 1078, N 12, maddələr 1213, 1219; 2008, N 3, maddə 153, N 5, maddələr 326, 341, N 6, maddələr 471, 481, N 7, maddə 602, N 8, maddə 699, N 10, maddə 881; 2009, N 2, maddə 54, N 5, maddə 311, N 6, maddə 403, N 10, maddə 771, N 11, maddə 878, N 12, maddə 964; 2010, N 4, maddə 276; 2011, N 2, maddə 71, N 3, maddə 165, N 6, maddə 463; 2012, N 5, maddə 413, N 10, maddə 945, N 11, maddə 1049; 2015, N 1, maddə 9, N 5, maddə 488, N 10, maddə 1100; 2016, N 8, maddə 1365, N 11, maddələr 1760, 1782, 1785; 2017, N 5, maddə 726, N 6, maddə 1054, N 7, maddə 1267, N 8, maddə 1513, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 824-VQD nömrəli Qanunu, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 850-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3-cü maddənin birinci hissəsinə "müddəaları" sözündən sonra ", həmçinin bu Qanunun 15-1-ci maddəsi" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 15-1-ci və 15-2-ci maddələr əlavə edilsin:

**"Maddə 15-1. Dövlət qulluqçusunun şəxsi işi**

15-1.1. Dövlət qulluqçusunun dövlət qulluğu keçdiyi dövr ərzində yalnız bir şəxsi işi tərtib edilir və aparılır.

15-1.2. Dövlət qulluqçusunun şəxsi işinə bu Qanunun 15-1.3-cü maddəsinə əsasən müəyyən olunan qaydalarda nəzərdə tutulmuş sənədlər və məlumatlar daxil edilir.

15-1.3. Dövlət qulluqçusunun şəxsi işinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

15-1.4. Dövlət qulluqçusunun şəxsi işinin aparılması ilə bağlı tələblərin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 15-2. Dövlət qulluqçusunun xidməti vəsiqəsi**

15-2.1. Dövlət qulluqçusuna qulluq keçdiyi dövlət orqanında xidməti vəsiqə verilir.

15-2.2. Xidməti vəsiqə dövlət qulluqçusunun tutduğu dövlət qulluğu vəzifəsini və ona verilmiş ixtisas dərəcəsini təsdiq edən rəsmi sənəddir.

15-2.3. Xidməti vəsiqənin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 dekabr 2017-ci il*
*№ 968-VQD*

## ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun tətbiqi və ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 15-1.3-cü maddəsinə uyğun olaraq, dövlət qulluqçusunun şəxsi işinin aparılmasının yeni qaydaları ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. həmin Qanunun 15-1.4-cü maddəsinə uyğun olaraq, dövlət qulluqçusunun şəxsi işinin aparılması ilə bağlı tələblərin pozulmasına görə inzibati məsuliyyət müəyyən edən qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin Qanunun 15-2.3-cü maddəsinə uyğun olaraq, dövlət qulluqçusunun xidməti vəsiqəsinin nümunəsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. beynəlxalq təcrübə nəzərə alınmaqla "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. bu Fərmanın 7-ci hissəsində nəzərdə tutulmuş proqram təminatının hazırlanması üçün tələb olunan vəsaitin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial

İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılması üçün tədbirlər görsün;

1.9. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Fərmanın 1.5-ci bəndində nəzərdə tutulmuş Strategiya layihəsi hazırlanarkən həmçinin aşağıdakı məsələlər nəzərə alınsın:

2.1. dövlət qulluğunda institusional islahatlar;

2.2. dövlət qulluğunda kadr siyasəti;

2.3. dövlət qulluğunda rotasiya;

2.4. dövlət qulluqçularının peşəkarlığının və səmərəliliyinin artırılması məqsədi ilə dövlət qulluğunda səriştə (kompetensiya) modelinin tətbiqi;

2.5. dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi;

2.6. dövlət qulluğunun informasiya təminatı, o cümlədən elektron dövlət qulluğunun inkişaf etdirilməsi;

2.7. dövlət qulluqçularının stimullaşdırılması məqsədi ilə mütərəqqi motivasiya (həvəsləndirmə) sisteminin yaradılması.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında "İşçilərin Şəxsi İşlərinin Elektron Məlumat Sistemi" (bundan sonra - Sistem) yaradılsın.

4. Müəyyən edilsin ki:

4.1. Sistem proqram təminatı vasitəsilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının hər bir işçisi üçün elektron şəxsi iş qovluğunun yaradılmasını, şəxsi iş qovluğunda olan sənədlərin və məlumatların elektron qaydada tərtib olunmasını və aparılmasını, habelə Sistemdə olan məlumatların daim yenilənməsini təmin edir;

4.2. Sistemin administratoru funksiyasını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirir, texniki təminatını və işlək vəziyyətdə olmasını Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, təhlükəsizliyini Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti təmin edir.

5. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

5.1. Sistemin proqram təminatının hazırlanmasını və tətbiqini təmin etsin;

5.2. "İşçilərin Şəxsi İşlərinin Elektron Məlumat Sistemi"ndən istifadə qaydalarını iki ay müddətində müəyyən etsin;

5.3. bu Fərmanın 7-ci hissəsində nəzərdə tutulmuş proqramın tətbiqi ilə bağlı zəruri tədbirlər görsün və görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi bu Fərmanın 4.2-ci və 5.1-ci bəndlərindən irəli gələn zəruri tədbirlərin görülməsini təmin etsin.

7. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi vəzifəli şəxslərin şəxsi iş qovluğunun elektron qaydada tərtib olunması və aparılması ilə bağlı müvafiq proqram təminatını həmin proqramın administratoru olan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təklifləri əsasında doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etsin.

8. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 1, maddə 28; 2002, N 8, maddə 495; 2005, N 12, maddə 1111; 2007, N 12, maddə 1241; 2008, N 5, maddə 363; 2010, N 2, maddə 80; 2017, N 8, maddə 1518) 3.1-ci bəndində "maddəsində" sözü ", 15-1.3-cü və 15-2.3-cü maddələrində" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 fevral 2018-ci il*
*№ 1806*